## Strateji İnkişaf Şurasının

## Əsasnaməsi

| Sənədi tərtib edən şöbə | Redaksiya | Qeydiyyat nömrəsi | Qüvvəyə minmə tarixi | Qüvvədə olma müddəti |
|---|---|---|---|---|
| İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsi | 1-ci | H/7-4072023SİŞ/Ə | 04.07.2023-cu il | 3.07.2026-cı il |
| **Əsasnamənin Bəyannaməsi** | | | | |
| **Məqsəd** | Azərbaycan Tibb Universitetinin İnkişaf Strategiyasının formalaşdırılması və həyata keçirilməsini təmin etmək | | | |
| **Fəaliyyət dairəsi** | Universitet Strategiyasının həyata keçirilməsinə yönəlmiş strateji plan və proqramların həyata keçirilməsi prosesində Universitetin struktur bölmələrinin əlaqələndirilməsini və qarşılıqlı fəaliyyətini təmin etmək. | | | |

**Mündəricat**


1. Ümumi müddəalar……………………………………………………..2
2. Funksiyalar……………………………………………………………..3
3. Vəzifələr…………………………………………………………………4
4. Hüquq və səlahiyyətlər………………………………………………….4
5. Məsuliyyət………………………………………………………………4
6. Şuranın üzvləri…………………………………………………………5
7. Yekun müddəalar………………………………………………………5
8. Razılaşdırma vərəqi……………………………………………………………………..6
9. Sənəddə dəyişikliklərin edilməsi barədə qeydiyyat vərəqəsi…….6

1. **Ümumi müddəalar**

Bu əsasnamə Strateji İnkişaf Şurasının (bundan sonra - Şura) məqsədlərini, vəzifələrini, funksiyalarını, hüquq və məsuliyyətlərini müəyyən edən, onun fəaliyyətinin təşkilini, Azərbaycan Tibb Universitetinin (bundan sonra – Universitet) digər struktur bölmələri və vəzifəli şəxsləri ilə qarşılıqlı fəaliyyət qaydasını tənzimləyən əsas normativ sənəddir.

Şura Azərbaycan Tibb Universitetinin təhsil, elm, müalicə, əməkdaşlıq, cəmiyyətə töhfə, infrastruktur üzrə strateji inkişaf planını həyata keçirir.

Şura Universitet rektorunun əmri ilə yaradılır və ləğv edilir.

Şura Universitet rektorunun sədirliyi ilə fəaliyyət göstərir.

Şura öz fəaliyyəti barədə illik hesabatları Elmi Şuraya təqdim edir.

Şura iki ayda bir dəfədən az olmayaraq çağırılır.

Əsəsnamə Universitetin Elmi Şurasının qərarına əsasən rektorun əmri ilə təsdiq olunur.

Bu Əsasnaməyə dəyişikliklərin edilməsi Universitetin Elmi Şurasının qərarına əsasən rektorun əmri ilə həyata keçirilir.

2. **Funksiyalar**

- Universitetinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri müəyyən etmək.
- Universitetinin uzun, qısa və ortamüddətli dövr üçün strateji inkişaf proqramı (SİP) hazırlamaq.
- SİP strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğun müəyyən etmək.
- SİP-də prioritet istiqamətləri müəyyən etmək və Universitetinin qarşısında qoyulan məqsəd və hədəflərə uyğun olmasını təmin etmək.
- SİP-də əsas strateji məqsəd və hədəfləri müəyyən etmək və onlar üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlər müəyyənləşdirmək.
- Hər il üçün SİP hazırlanan zaman SİP-in əvvəlki illərdə icra vəziyyətini nəzərə almaq.
- SİP-də Universitetin güclü tərəfləri, zəif tərəfləri, imkanları və təhdidləri nəzərə almaq (GZİT təhlili əsasında).
- SİP-də maraqlı tərəflərin iştirak etməsini təmin etmək.

3. **Vəzifələr**

- SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və ya keyfiyyət göstəriciləri müəyyən edilməsi.
- SİP-in maliyyə təminatı Universitetinin büdcə planlaşmasında nəzərə alınması.
- İnkişaf strategiyasına müəyyən edici amilləri tətbiq edilməsi.
- Əsas effektivlik göstəricilərini müəyyən edilməsi.

4. **Hüquq və səlahiyyətlər**

- Şuranın fəaliyyət istiqamətləri üzrə təkliflər vermək;
- Şuranın qərarlarının qəbulunda iştirak etmək.

Şuranın üzvləri bərabər hüquqlara malikdir.

5. **Məsuliyyət**

Şura üzvləri səlahiyyətləri daxilində qarşıya qoyulmuş hədəflərə çatmaq istiqamətində fəaliyyət zamanı Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq qanun pozuntularına yol verilməsi hallarında Universitet rektoru qarşısında məsuliyyət daşıyırlar.

Şura sədri səlahiyyət dairəsində yaranan risklərə görə məsuliyyət daşıyır.

6. **Şuranın üzvləri**

Şuranın tərkibinə sədr, sədr müavini, katib və üzvlərdən ibarətdir.

Şuranın tərkibinə tutduqları vəzifələrə görə aşağıdakı şəxslər daxil edilir:

| | |
|---|---|
| Şuranın sədri: | ATU-nun rektoru |
| Şuranın sədr müavini: | Beynəlxalq əlaqələr üzrə prorektor |
| Şuranın katibi: | İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin müdiri |
| Şuranın üzvləri: | Prorektorlar |
| | Klinika rəhbərləri |
| | Fakültə dekanları |
| | Elmi katib |
| | İnformasiya sistemlərinin təşkili və idarəetmə mərkəzinin rəhbəri |
| | Kadrlar şöbəsinin müdiri |
| | Hüquqşünas |
| | Mərkəzləşdirilmiş mühasibatlığın baş mühasibi |
| | Həmkarlar İttifaqının Komitəsinin sədri |
| | Tədris departamentinin rəhbəri |
| | Xarici tələbələrlə iş üzrə dekan vəzifəsini müvəqqəti icra edən şəxs |
| | Rezidentura və magistratura şöbəsinin müdiri |
| | Doktorantura şöbəsinin müdiri |
| | Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri. |

Təhsilalanlar, işəgötürənlər və digər maraqlı tərəflər sorğu, rəy və görüş formatında Şuranın işinə cəlb olunur.

Şuranın üzvləri Şuranın iclaslarında iştirak etməlidir.

Şuranın öz səlahiyyətləri daxilində qəbul etdiyi qərarları həyata keçirməlidir.

Bu Əsasnaməyə riayət etməlidir.

Şurada üzvlüyə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilə bilər:

- üzvün öz istəyi ilə, yazılı şəkildə;
- Universitetlə əmək müqaviləsinə xitam verildikdə;
- bu Əsasnaməyə, peşə və elmi etika tələblərini sistematik şəkildə pozan hərəkətləri ilə əlaqədar.

## 7. Yekun müddəalar

Bu Əsasnamə Universitetin Elmi Şurasının qərarına əsasən rektorun əmri ilə təsdiq edilir.

Bu Əsasnaməyə dəyişikliklərin edilməsi Universitetin Elmi Şurasının qərarına əsasən rektorun əmri ilə həyata keçirilir.

## 8. Razılaşdırma vərəqəsi

| № | Sənədin redaksiyası | Qüvvədə olma müddəti | Struktur bölmənin adı | Vəzifə | ASA | Tarix | Razıyam | Razı deyiləm | Razı olmamağın səbəbi barədə qeyd |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |

## 9. Sənəddə dəyişikliklərin edilməsi barədə qeydiyyat vərəqəsi

| № | Səhifənin nömrəsi | | | Dəyişikliklərin əsaslandırılması | İmza | S.A.A. | Qüvvəyə minmə tarixi |
|---|---|---|---|---|---|---|---|
| | Dəyişilmiş | yeni | Ləğv olunmuş | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |